ARTİ
AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

# Dərs müşahidəsi və inkişaf istiqamətləri üzrə
# RUBRİK – MÜŞAHİDƏ FORMASI

| | | | |
|---|---|---|---|
| **Müəllimin adı:** | | **Sinif:** | |
| **Məktəb/RTİ/sektor:** | | **Fənn:** | |
| **Müşahidəçinin adı:** | | **Tarix:** | |

| **1. Dərsin planlaşdırılması** | **Müşahidə qeydi /Konkret nümunə:** |
|---|---|
| **Nəyə baxılmalıdır?** Dərs sistemli və məqsədyönlü planlaşdırılıbmı? Təlim nəticəsi və qiymətləndirmə meyarları düzgün müəyyənləşdirilibmi? Fəaliyyətlər məntiqi ardıcıllıqla qurulubmu, müxtəlif ehtiyaclar üçün alternativ fəaliyyət və resurslar nəzərdə tutulubmu? Planla dərsin real gedişi uyğunluq təşkil edirmi? | ________________________________ |
| ☐ Plan yoxdur və ya formaldır; məqsəd qeyri-müəyyəndir; planla dərsin gedişi uyğun deyil; fəaliyyətlər uzlaşmır. | ________________________________ |
| ☐ Plan və ya dərsin gedişi uyğundur; prosesdə bəzi məqsəddənkənar fəaliyyətlər icra olunur. | ________________________________ |
| ☐ Dərs məqsədyönlü planlaşdırılıb; təlim nəticəsi, meyarlar və fəaliyyətlər uyğundur; plan və dərsin gedişi uyğunluq təşkil edir. | ________________________________ |

| | |
|---|---|
| ☐ Dərs sistemli və məqsədyönlü planlaşdırılıb; təlim nəticəsi və qiymətləndirmə meyarları düzgün müəyyənləşdirilib; fəaliyyətlər məntiqi ardıcıllıqla qurulub; müxtəlif ehtiyaclar üçün alternativ fəaliyyət və resurslar hazırlanıb; plan və dərsin gedişi tam uyğundur. | |

| | |
|---|---|
| **2. Fəaliyyətlərin təlim nəticəsinə uyğunluğu**<br><br>**Nəyə baxılmalıdır?** Fəaliyyətlər təlim nəticəsinə birbaşa xidmət edirmi, bir-birini tamamlayırmı, şagirdi nəticəyə addım-addım yaxınlaşdırırmı?<br><br>☐ Fəaliyyətlər təlim nəticəsinə xidmət etmir və bir məqsəd ətrafında birləşmir.<br><br>☐ Fəaliyyətlərin çoxu nəticəyə uyğundur, lakin bəzi fəaliyyətlər dolayı və ya ümumi xarakter daşıyır.<br><br>☐ Fəaliyyətlərin əksəriyyəti təlim nəticəsinə xidmət edir; dərsin ümumi istiqaməti qorunur.<br><br>☐ Bütün fəaliyyətlər birbaşa təlim nəticəsinə xidmət edir, bir-birini tamamlayır və şagirdi nəticəyə addım-addım yaxınlaşdırır. | **Müşahidə qeydi /Konkret nümunə:**<br><br>____________________________<br>____________________________<br>____________________________<br>____________________________<br>____________________________<br>____________________________<br>____________________________<br>____________________________ |

| | |
|---|---|
| **3. Öyrənmə vəziyyətinin izlənilməsi**<br><br>**Nəyə baxılmalıdır?** Şagirdlərin öyrənmə vəziyyəti və çətinlikləri dərs boyu izlənilirmi? Müəllim müşahidə və yoxlama nəticələrinə əsasən təlimi uyğunlaşdırır, alternativ izah və fərdi dəstək verir, nəticəni yenidən yoxlayırmı? | **Müşahidə qeydi /Konkret nümunə:**<br><br>____________________________<br>____________________________<br>____________________________ |

| | |
|---|---|
| ☐ Formativ qiymətləndirmə aparılmır və şagirdlərin anlayıb-anlamadığı sistemli yoxlanılmır.<br>☐ Bəzi şagirdlərin çətinlikləri müəyyən edilir; problem əsasən ümumi izah və ya əlavə nümunə ilə həll olunur.<br>☐ Öyrənmə vəziyyəti izlənilir, çətinliklər aşkar edilir; müəllim müşahidəyə əsasən ehtiyac yaranarsa alternativ izah verir və ya fərdi dəstək göstərir, dərsin sonunda refleksiya aparılır.<br>☐ Öyrənmə vəziyyəti və çətinliklər vaxtında müəyyən edilir; təlim uyğunlaşdırılır; alternativ izah və fərdi dəstək verilir; nəticə yenidən yoxlanılır. Refleksiya aparılır. | ______________________<br>______________________<br>______________________<br>______________________<br>______________________ |

| | |
|---|---|
| **4. Əks-əlaqənin keyfiyyəti**<br>**Nəyə baxılmalıdır?** Əks-əlaqə vaxtında və konkret verilirmi? Güclü və inkişaf etdirilməli tərəflər, növbəti addım göstərilirmi? Şagird rəyə əsasən işini düzəldir və müəllim yenidən yoxlayırmı?<br>☐ Əks-əlaqə yoxdur və ya yalnız qiymət/bal formasındadır; şagirdin inkişafına istiqamət vermir.<br>☐ Əks-əlaqə əsasən ümumidir; səhv göstərilə bilər, lakin növbəti addım aydın deyil.<br>☐ Əks-əlaqə vaxtında, konkret və təlim nəticəsinə uyğundur; güclü və inkişaf etdirilməli tərəflər göstərilir.<br>☐ Əks-əlaqə mütəmadi və fərdiləşdirilmişdir; konkret növbəti addım göstərilir; şagird rəyə əsasən işini düzəldir və müəllim düzəlişi yenidən yoxlayır. | **Müşahidə qeydi /Konkret nümunə:**<br>______________________<br>______________________<br>______________________<br>______________________<br>______________________<br>______________________<br>______________________<br>______________________ |

| **5. Təlim nəticəsi və qiymətləndirmə meyarlarının təqdim edilməsi**<br><br>**Nəyə baxılmalıdır?** Təlim nəticəsi və qiymətləndirmə meyarları şagirdlərlə paylaşılırmı və aydın izah edilirmi?<br><br>☐ Təlim nəticəsi və qiymətləndirmə meyarları təqdim olunmur və ya şagirdlərə aydın deyil.<br>☐ Təlim nəticəsi təqdim edilir, lakin elan səviyyəsində qalır.<br>☐ Təlim nəticəsi və ya qiymətləndirmə meyarları paylaşılır və aydın izah edilir.<br>☐ Təlim nəticəsi və qiymətləndirmə meyarları şagirdlərlə paylaşılır, aydın izah edilir və dərs boyu onlara istinad edilir. | **Müşahidə qeydi /Konkret nümunə:**<br><br>____________________________<br>____________________________<br>____________________________<br>____________________________<br>____________________________<br>____________________________<br>____________________________<br>____________________________ |
|---|---|

| **6. Diferensial yanaşma**<br><br>**Nəyə baxılmalıdır?** Fərqli ehtiyac, səviyyə və öyrənmə tərzləri nəzərə alınırmı? Müxtəlif səviyyəli tapşırıqlar, fərqli fəaliyyətlər və alternativ resurslar tətbiq edilirmi?<br><br>☐ Şagirdlərin fərqli ehtiyacları nəzərə alınmır və əlavə dəstək göstərilmir.<br>☐ Əsasən eyni tapşırıq verilir, ehtiyac yarananda bəzi şagirdlərə fərdi dəstək göstərilir.<br>☐ Təlim nəticəsinə uyğun müxtəlif səviyyəli tapşırıqlar və fərqli öyrənmə tərzlərinə uyğun fəaliyyətlər təqdim edilir.<br>☐ Fərqli ehtiyac, səviyyə və öyrənmə tərzləri nəzərə alınır; müxtəlif səviyyəli tapşırıqlar, fərqli fəaliyyətlər və alternativ resurslar tətbiq edilir. | **Müşahidə qeydi /Konkret nümunə:**<br><br>____________________________<br>____________________________<br>____________________________<br>____________________________<br>____________________________<br>____________________________<br>____________________________<br>____________________________ |
|---|---|

| **7. Sual-cavab və müzakirənin təşkili** | **Müşahidə qeydi /Konkret nümunə:** |
|---|---|
| **Nəyə baxılmalıdır?** Faktoloji və düşündürücü suallar, düşünmə vaxtı, şagirdlərin fikir və suallarını əsaslandırması, bir-birinin fikrinə münasibəti və yüksək idraki bacarıqların nümayişi müşahidə olunurmu? | ______________________________ |
| ☐ Yalnız yaddaşa əsaslanan suallar verilir; düşünmə vaxtı və müzakirə şəraiti yoxdur. | ______________________________ |
| ☐ Əsasən faktoloji suallar verilir; düşündürücü suallar azdır; düşünmə vaxtı və müzakirə epizodikdir. | ______________________________ |
| ☐ Faktoloji və düşündürücü suallar verilir; düşünmə vaxtı ayrılır; müzakirə və yüksək idraki bacarıqların inkişafına şərait yaradılır. | ______________________________ |
| ☐ Müzakirə effektiv təşkil olunur; şagirdlər sual verir, fikirlərini əsaslandırır, bir-birinin fikrinə münasibət bildirir və yüksək idraki bacarıqlar nümayiş etdirirlər. | ______________________________ |

| **8. Qiymətləndirmə meyarları** | **Müşahidə qeydi /Konkret nümunə:** |
|---|---|
| **Nəyə baxılmalıdır?** Meyarlar təlim nəticəsinə uyğundurmu və dərs boyu sistemli istifadə edilirmi? Müəllim fəaliyyətləri meyarlara əsasən müşahidə edir və istiqamətləndirirmi? | ______________________________ |
| ☐ Meyarlar yoxdur, formaldır və ya dərsin gedişində istifadə edilmir. | ______________________________ |
| ☐ Meyarlardan müəyyən fəaliyyətlərdə istifadə olunur, lakin tətbiq epizodikdir. | ______________________________ |
| ☐ Meyarlar təlim nəticəsinə uyğundur və dərs boyu istifadə edilir; müəllim fəaliyyətləri meyarlara əsasən müşahidə edir və istiqamətləndirir. | ______________________________ |

| | |
|---|---|
| ☐ Meyarlar təlim nəticəsinə uyğundur və dərs boyu sistemli istifadə edilir; müəllim fəaliyyətləri meyarlara əsasən müşahidə edir və istiqamətləndirir. | |

| | |
|---|---|
| **9. Sinifdə nizam-intizamın idarə olunması**<br><br>**Nəyə baxılmalıdır?** Qayda və gözləntilər, proaktiv idarəetmə, şagirdlərin öz davranışlarını tənzimləməsi və fəaliyyətlərarası keçidlər müşahidə olunurmu?<br><br>☐ Qayda və prosedurlar müəyyən edilməyib və ya tətbiq olunmur; pozuntular tez-tez baş verir və dərsin gedişinə mane olur.<br><br>☐ Qayda və prosedurlar var, lakin tez-tez xatırladılır; nizam müəllim müdaxiləsindən asılıdır; keçidlərdə vaxt itkisi ola bilər.<br><br>☐ Qayda və prosedurlar uğurla tətbiq olunur; şagirdlərin əksəriyyəti riayət edir; pozuntular qısa xatırlatmalarla bərpa olunur.<br><br>☐ Qaydalar və gözləntilər əvvəlcədən aydındır; proaktiv idarəetmə tətbiq olunur; şagirdlər davranışlarını özləri tənzimləyir; keçidlər sürətli və sakitdir. | **Müşahidə qeydi /Konkret nümunə:**<br><br>____________________________<br>____________________________<br>____________________________<br>____________________________<br>____________________________<br>____________________________<br>____________________________<br>____________________________ |

| | |
|---|---|
| **10. Qarşılıqlı münasibətlər və ünsiyyət**<br><br>**Nəyə baxılmalıdır?** Qarşılıqlı hörmət və əməkdaşlıq, şagirdlərin sərbəst fikir bildirməsi və digər fikirləri nəzərə alması, müəllimin dinləməsi və səhvləri öyrənmə fürsətinə çevirməsi müşahidə olunurmu?<br><br>☐ Mənfi ünsiyyət müşahidə olunur; sərbəst ifadəyə şərait yoxdur; əsasən müəllim monoloqu üstünlük təşkil edir. | **Müşahidə qeydi /Konkret nümunə:**<br><br>____________________________<br>____________________________<br>____________________________<br>____________________________<br>____________________________ |

| | |
|---|---|
| ☐ Nəzakətli ünsiyyət var, amma bütün şagirdlər cəlb olunmur; səhv cavablar üzərində iş məhduddur.<br>☐ Hörmət və etimada əsaslanan münasibətlər qurulur; şagirdlər sərbəst fikir bildirir; müəllim dinləyir və səhvlərə müsbət münasibət göstərir.<br>☐ Qarşılıqlı hörmət və əməkdaşlıq təmin olunur; şagirdlər sərbəst fikir bildirir, digər fikirləri nəzərə alır; müəllim dinləyir və səhvləri öyrənmə fürsətinə çevirir. | ____________________<br>____________________<br>____________________<br>____________________<br>____________________<br>____________________<br>____________________<br>____________________ |

| | |
|---|---|
| **11. Resurslardan səmərəli istifadə**<br>**Nəyə baxılmalıdır?** Resurslardan məqsədyönlü və səmərəli istifadə olunurmu? Dərslik və əlavə resurslar mənimsəməyə kömək edirmi? Şagirdlər resurslardan aktiv istifadə edirmi?<br>☐ Resurslardan məqsədyönlü istifadə edilmir və ya istifadə formal xarakter daşıyır.<br>☐ Resurslardan istifadə olunur, lakin əsasən müəllim fəaliyyəti ilə məhdudlaşır.<br>☐ Dərslik və əlavə resurslardan səmərəli istifadə edilir; onlar mövzunun mənimsənilməsinə kömək edir.<br>☐ Müxtəlif resurslardan məqsədyönlü və səmərəli istifadə edilir; şagirdlər də resurslardan aktiv istifadə edir; resurslar öyrənməni gücləndirir. | **Müşahidə qeydi /Konkret nümunə:**<br>____________________<br>____________________<br>____________________<br>____________________<br>____________________<br>____________________<br>____________________<br>____________________ |

## Müşahidənin yekun qeydləri

| Meyar | Seçim | Güclü tərəfi/ İnkişaf istiqaməti |
|---|---|---|
| 1. Dərsin planlaşdırılması | ☐ 1 ☐ 2 ☐ 3 ☐ 4 | |
| 2. Fəaliyyətlərin təlim nəticəsinə uyğunluğu | ☐ 1 ☐ 2 ☐ 3 ☐ 4 | |
| 3. Öyrənmə vəziyyətinin izlənilməsi | ☐ 1 ☐ 2 ☐ 3 ☐ 4 | |
| 4. Əks-əlaqənin keyfiyyəti | ☐ 1 ☐ 2 ☐ 3 ☐ 4 | |
| 5. Təlim nəticəsi və qiymətləndirmə meyarlarının təqdim edilməsi | ☐ 1 ☐ 2 ☐ 3 ☐ 4 | |

| | | |
|---|---|---|
| 6. Diferensial yanaşma | ☐ 1 ☐ 2 ☐ 3 ☐ 4 | |
| 7. Sual-cavab və müzakirənin təşkili | ☐ 1 ☐ 2 ☐ 3 ☐ 4 | |
| 8. Qiymətləndirmə meyarları | ☐ 1 ☐ 2 ☐ 3 ☐ 4 | |
| 9. Sinifdə nizam-intizamın idarə olunması | ☐ 1 ☐ 2 ☐ 3 ☐ 4 | |
| 10. Qarşılıqlı münasibətlər və ünsiyyət | ☐ 1 ☐ 2 ☐ 3 ☐ 4 | |
| 11. Resurslardan səmərəli istifadə | ☐ 1 ☐ 2 ☐ 3 ☐ 4 | |

## Ümumi güclü tərəflər

___

___

___

## İnkişaf etdirilməsi tövsiyə olunan istiqamətlər:

___

___

___

## Növbəti müşahidə üçün əsas diqqət nöqtəsi:

___

___

___

**Müşahidənin nəticələri ilə tanış oldum:**

Müəllimin adı, soyadı: ____________________ İmza: ____________________ Tarix: ____________________